“Balakən Azərbaycanın çox gözəl guşəsidir” İlham ƏLİYEV



# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ 5 (23) ✦ 31 may 2026-cı il

## Balakəndə “Qəlblərdə yaşayan dahi” konserti – Ulu Öndərə musiqili ehtiram





Balakən rayonunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə keçirilən silsilə tədbirlərdən biri də mayın 10-da Heydər Əliyev adına Mədəniyyət və İstirahət parkında təşkil olunan “Qəlblərdə yaşayan dahi” adlı konsert proqramı oldu. Rayon İcra Hakimiyyəti və Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutan tədbir həm mənəvi, həm də mədəni baxımdan yaddaqalan anlarla zəngin idi.

İlk olaraq rayon ictimaiyyəti, icra hakimiyyətinin başçısı Natiq Ağayev, Milli Məclisin deputatı Nəsib Məhəməliyev, RİHB Aparatının məsul əməkdaşları, rayon hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri və kollektivləri, şəhid ailələri, qazilər tərəfindən Ulu Öndərin abidəsi ziyarət edildi, önünə gül dəstələri düzüldü. Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu,Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilid. Bu anlar tədbir iştirakçılarına dərin duyğular yaşatdı, xalqın yaddaşında əbədi iz qoymuş dahi liderin xatirəsinə ehtiramın təcəssümü oldu.

Sonra Heydər Əliyev adına mədəniyyət və istirahət parkında yeni açılan ictimai iaşə obyektinə, robotexnika sərgisinə və rayon sakinləri, şahmatsevərlər üçün yeni yaradılan açıq havada şahmat meydançasına baxış keçirilib.

Daha sonra Milli Məclisin deputatı Nəsib Məhəməliyev və Rayon Ağsaqqallar Şurasının üzvü Mədət Bağırov çıxış edərək Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, xalqın rifahı və ölkənin inkişafı naminə gördüyü misilsiz xidmətlərdən danışdılar. Onların sözlərində Ulu Öndərin xalqın qəlbində yaşayan dahi şəxsiyyət olduğu bir daha vurğulandı.

Konsert proqramı isə Balakənin zəngin mədəniyyətini, folklorunu və musiqi irsini bir səhnədə birləşdirdi. Uşaq İncəsənət Məktəbinin Xalq çalğı alətləri orkestri və xor kollektivi, Mədəniyyət Mərkəzinin “Nur” instrumental ansamblı, “Nənələr” ingiloy folklor kollektivi, “Cahan” avar xalq kollektivi, “Qönçə” rəqs qrupu, istedadlı mədəniyyət işçiləri və rayonun tanınmış müğənniləri bir-birindən rəngarəng musiqi nömrələri ilə çıxış edərək tamaşaçılara unudulmaz anlar yaşatdılar.Konsert zamanı matorlu yamac paraşütü növü olan paratrayk uçuşu tamaşaçıların böyük marağına səbəb olub.

Balakəndə keçirilən bu konsert bir daha sübut etdi ki, Heydər Əliyev yalnız siyasi lider deyil, həm də milli-mənəvi dəyərlərin qoruyucusu, xalqın qəlbində əbədi yaşayan dahi şəxsiyyətdir. “Qəlblərdə yaşayan dahi” proqramı həm musiqi, həm də ruhani bir bayram kimi yaddaşlarda qalaraq Ulu Öndərə olan sevgi və ehtiramın parlaq nümunəsinə çevrildi.

**Yeni Balakən**









## Hörmətli İş Adamlarına Çağırış: Balakən Yeni Dövrə Qədəm Qoyur



Balakən uzun illərin ətalətindən xilas olur. Köhnə komandanın yola salınması ilə rayonda yeni nəfəs, yeni simalar görünür. İllərlə iş adamlarının sərmayəsini şübhə altında qoyan, bir nəfərin bitib-tükənməyən tamahı və ona xidmət edən məmurların yaratdığı düzən artıq aradan qaldırılıb. Dövlət Təhlükəsizlik Xidmətinin müdaxiləsi ilə bu maneələr tarixə qovuşdu.

Bir çox iş adamı illər boyu təzyiqlərə tab gətirməyərək rayonu, hətta ölkəni tərk etmiş, qərib diyarlarda vətən həsrəti ilə çalışaraq ailəsinə ruzi qazanmağa məcbur olmuşdu. İndi isə Balakəndə tamamilə başqa ab-hava var.

### YENİ RƏHBƏRLİK – YENİ GÜVƏN

Rayonun yeni rəhbəri Natiq Ağayev ilk günlərdən iş adamlarını böyük iclasa dəvət edərək onlara güvəncə verdi. O, açıq şəkildə bildirdi ki, Balakənin inkişafı,iş adamlarının fəaliyyəti üçün hər cür dəstək göstəriləcək. Əsas məqsəd – həm iş adamlarının, həm də rayon əhalisinin qazanmasıdır.

Natiq müəllim hər kənddə, hər görüşdə insanlara səslənir: iş qurmaq, iş yerləri açmaq istəyənlərə dəvət ünvanlayır. Bu çağırış yalnız yerli iş adamlarına deyil, rayondan və ölkədən kənarda yaşayan həmvətənlərimizə də yönəlib. Hətta başqa bölgələrin iş adamları da Balakəndə sərmayə qoya, iş qura bilərlər.

### BALAKƏN – İNVESTİSİYA ÜÇÜN MÜNBİT MƏKAN

Balakən yalnız bir rayon deyil, həm də sərmayə üçün açıq meydandır. Burada qoyulan hər bir sərmayə həm iş adamına qazanc gətirəcək, həm də bölgənin sosial rifahını yüksəldəcək. Yeni rəhbərliyin şəffaf və dəstəkçi siyasəti iş adamları üçün güvənli mühit yaradır.

### İMKANLAR VƏ PERSPEKTİVLƏR

Balakən üçün geniş və cəlbedici planlar mövcuddur:

*Yaşayış və tikinti sektoru – çoxmərtəbəli yaşayış binaları, müasir yaşayış kompleksləri, yeni məhəllələrin salınması.

*Sənaye və istehsal – zavod və fabriklərin qurulması, emal müəssisələrinin yaradılması, yerli məhsulların ixrac potensialının artırılması.

*Kənd təsərrüfatı – fındıqçılıq, tütünçülük, arıçılıq, meyvəçilik və tərəvəzçilik sahələrində yeni layihələr; müasir istixanaların qurulması.*Turizm – Katexçay şəlaləsi, dağ kəndləri, Zaqatala Dövlət qoruğu istiqamətində turizm marşrutlarının açılması; kənd turizminin inkişafı.

*Təhsil və elm – yeni məktəblərin tikintisi, peşə məktəblərinin yaradılması, gənclərin müasir biliklərlə təmin olunması, özəl məktəblərin,universitetlərin açılması

*İdman və sağlamlıq – idman-sağlamlıq komplekslərinin əsaslı təmiri, yeni idman mərkəzlərinin açılması.

*Ticarət və xidmət sektoru – müasir ticarət mərkəzləri, xidmət obyektləri, kiçik və orta biznes üçün geniş imkanlar.

*İnnovasiya və texnologiya – rəqəmsal xidmətlərin inkişafı, startap layihələrinin dəstəklənməsi, gənc sahibkarların təşviqi və sairə...

### SAKİNLƏRİN SƏSİ

Balakənlilər bu yeni ab-havanı ümidlə qarşılayırlar:

**Müəllimə Aynur xanım:** “İllərdir gözləyirdik ki, bölgəmizdə iş yerləri açılsın. Yeni rəhbərliyin çağırışı bizə ümid verdi. Biz istəyirik ki, gənclərimiz doğma yurdunda işləsin, oxusun.”

**Fermer Əli kişi:** “Torpaqlarımız münbitdir, amma illərdir sərmayə qoyulmurdu. İndi iş adamları gəlsə, həm məhsuldarlıq artar, həm də kəndlərimiz canlanar.”

**Gənc sahibkar Rəşad:** “Balakən turizm üçün cənnət məkandır. Katexçay şəlaləsi, dağ kəndlərimiz, təbiətimiz – bunlar hamısı sərmayə üçün açıq sahələrdir. Biz gənclər də bu işlərdə iştirak etmək istəyirik.”

Hörmətli iş adamları, Balakən sizdən güvən və dəstək gözləyir. Bu torpağa qoyulan hər bir sərmayə həm sizin, həm də xalqımızın gələcəyinə işıq tutacaq. Balakən artıq yeni dövrə qədəm qoyub – bu dövrün adı inkişaf, birlik və tərəqqidir.

**Ramazan Abal**

YENİ BALAKƏN"-NİN TƏQDİMATI

## Balakənin idarəetməsində yeni nəfəs – Zeynalabid Əmrəliyev



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bölgələrə icra başçıları təyin edərkən verdiyi ən mühüm tövsiyələrdən biri savadlı və ləyaqətli gənclərin idarəetməyə cəlb olunmasıdır. Çünki bu iki dəyərin – savad və ləyaqətin – bir insanda birləşməsi həm dövlətin nüfuzunu ucaldır, həm də xalqın hörmətini artırır.

Balakənin idarəetməsində də bu gün yeni nəfəs duyulur. Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayevin sərəncamı ilə savadlı, qabiliyyətli və ləyaqətli gəncimiz Əmrəliyev Zeynalabid Zahid oğlu “Balakən Yaşıllıq Təsərrüfatı Sahəsi" MMC-nin rəisi vəzifəsinə təyin olunub.

Zeynalabid müəllim Balakən idarəetməsində yeni ad, yeni nəfəsdir. Müasir düşüncəli, yenilikçi kadr kimi onun qarşısında məsuliyyətli bir sahə dayanır. Uzun illərin çətinliklərini aradan qaldırmaq, təsərrüfatı təmizləmək və müasir dünya standartlarına uyğun inkişaf etdirmək onun ilk addımlarından olacaq.

Bu təyinat Balakənin gəncləşən idarəetməsinin bariz nümunəsidir. Gənc kadrların dövlət işinə cəlb olunması həm bölgənin inkişafına, həm də gənclərin öz potensialını reallaşdırmasına geniş imkanlar açır.

“Yeni Balakən” oxucuları Zeynalabid müəllimi yeni vəzifəsi münasibətilə təbrik edir, ona uğurlar arzulayır. Qədəmin uğurlu olsun, Zeynalabid!

## Balakənin Turizm Potensialı – İtirilmiş İmkanlar və Yeni Üfüqlər



Balakən rayonunun sərhəd kəndlərindən birində, dağların ətəyində oturub söhbət etdiyimiz yaşlı bir sakin belə deyirdi: “Bu dağların havası, bulaqların suyu, insanların qonaqpərvərliyi – hamısı Allahın bizə verdiyi nemətdir. Amma biz bu neməti dünyaya tanıda bilmirik.” Onun sözlərində həm qürur, həm də bir az təəssüf vardı.

Balakən Azərbaycanın şimal-qərb qapısıdır. Buradan ölkəyə girən hər bir qonaq ilk təəssüratını bu torpaqdan alır, çıxan isə son xatirəsini buradan aparır. Yaşıllıqlar içində gizlənmiş dağ çayları, gur şəlalələr, sərin bulaqlar və mehriban insanlar Balakəni unudulmaz edir. Lakin bu gözəlliklər hələ də tam dəyərləndirilmir.

Rayonun turizm sahəsində geri qalmasının səbəblərindən biri illər əvvəl atılmış yanlış addımlardır. Ərazisinin böyük hissəsi Balakənə aid olduğu halda “Zaqatala qoruğu” adlandırılması bölgənin turizm cazibəsini zəiflətdi. Bu gün qoruq adı altında minlərlə insan öz torpaqlarındakı təbiət gözəlliklərindən məhrumdur. Bir gənc kənd sakini deyir: “Bizim torpağımızın yarısı qoruğa düşüb. Qonaq gəlir, dağlara çıxmaq istəyir, amma icazə yoxdur. Bu, həm bizim, həm də turistlərin ürəyini sındırır.”

Halbuki Balakən ekoturizm üçün ideal məkandır. Dağ kəndlərində geniş evlər, rahat otaqlar, hər cür şərait mövcuddur. Bu evlər turistlər üçün ailəvi istirahət mərkəzinə çevrilə bilər. Qonaqların ödədiyi məbləğlər yerli əhalinin rifahını yüksəldər, xidmətlərin çeşidini və keyfiyyətini artırar. Bir dəfə qazanc əldə edən insanlar bu sahəni daha da inkişaf etdirmək üçün yeni ideyalar ortaya qoyar.

Turizmin inkişafı üçün ilk növbədə düşüncəsizlik nəticəsində yaranmış əngəllər aradan qaldırılmalıdır. Aidiyyatı qurumlar bu sahəyə sistemli yanaşmalı, turizm xidməti göstərmək istəyənlərə biliklər öyrədilməlidir. Rayonumuzda turizm sahəsində təhsil almış gənclər bu işə cəlb olunmalı, məktəblərdə turizm mövzusunda inşalar yazdırılaraq şagirdlərdə bu potensialın varlığı təbliğ edilməlidir.

Yerli insanların ideyaları qlobal təcrübələrlə birləşdirilməli, iqtisadi dəstək mexanizmləri – vergi güzəştləri, aşağı faizli biznes kreditləri, həvəsləndirici tədbirlər – tətbiq olunmalıdır. Bir sahibkarın sözləri bunu təsdiqləyir: “Əgər dövlət bizə az faizli kredit versə, mən kəndimdə kiçik turizm mərkəzi quraram. Qonaqlar həm təbiəti görər, həm də kənd həyatını yaşayar.”

Balakən yalnız füsunkar təbiəti ilə deyil, həm də böyük turizm potensialı ilə Azərbaycanın incisi ola bilər. Bu sahəyə diqqət yetirilsə, rayonun sosial-iqtisadi inkişafı sürətlənər, işsizlik aradan qalxar, yerli əhalinin rifahı yüksələr. Balakənin dağları, bulaqları, şəlalələri və mehriban insanları dünyanın hər yerindən gələn turistlər üçün unudulmaz xatirələrə çevrilər.

Balakən bu gün bir yol ayrıcındadır: ya yanlış addımların yaratdığı əngəllərlə geri qalacaq, ya da düzgün qərarlarla Azərbaycanın turizm mərkəzinə çevriləcək. Seçim bizimdir, amma təbiət artıq öz sözünü deyib – Balakən gözləyir…

**Ramazan Abal**

# AXA sədri Sərdar Hacıyev Balakən rayonunda vətəndaşlarla görüşüb, təsərrüfatlara baş çəkib



Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin (AXA) sədri Sərdar Hacıyev mayın 26-da Balakən Dövlət Aqrar İnkişaf Mərkəzinin bunasında bu rayondan olan vətəndaşlarla görüşüb, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Qəbul zamanı vətəndaşların müraciətləri əsasən işə bərpa, işlə təmin olunma, subsidiya məsələləri, suvarma suyu ilə təminat və digər məsələlərlə bağlı olub.

AXA sədri hər bir müraciəti diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli araşdırılması və qanunvericiliyin tələblərinə uyğun olaraq qısa müddətdə həll edilməsi üçün tapşırıqlar verib.

Vətəndaş qəbulu başa çatdıqdan sonra AXA sədri Balakən rayonunun Mahamalar kəndində fermer Zülfüqarov Mürsəl İbrahim oğluna məxsus heyvandarlıq təsərrüfatına, eləcə də Katex kəndində fermer Əliyev Zeynal Hacıməmməd oğluna məxsus meyvə bağına, soyuducu anbara və balıq yetişdirmə sahəsinə baxış keçirib, təsərrüfat rəhbərləri ilə görüşüb.

Görüşlər zamanı heyvandarlıq təsərrüfatlarında aparılan profilaktik peyvəndləmə tədbirləri, heyvanların saxlanma, bəslənmə və yemlənmə şəraiti, həmçinin meyvə bağlarında həyata keçirilən aqrotexniki tədbirlər və məhsulun saxlanması məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra rayon ərazisində qəhvəyi mərmər bağacığına qarşı aparılan monitorinq və mübarizə tədbirləri ilə yerində tanış olunub, müvafiq tapşırıq və tövsiyələr verilib.

**Yeni Balakən**

# Balakən məktəbliləri "Azertoodathon 2026" layihəsində uğur qazandılar



İtaliya-Azərbaycan Universitetinin yeni istifadəyə verilmiş binasında keçirilən mükafatlandırma mərasimi həm müəllimlər, həm də şagirdlər üçün unudulmaz anlara çevrildi. ADA Universitetinin Kənd təsərrüfatı və qida elmləri fakültəsi (SAFS) tərəfindən təşkil olunan "Azerfoodathon 2026" layihəsi gənclərin kənd təsərrüfatı və qida elmlərinə marağını artırmaq məqsədi daşıyır. Bu il layihədə Balakən rayonunu təmsil edən 10 komanda iştirak edib, onlardan 4-ü qalib adını qazanıb.

## QAZMA MƏKTƏBİNİN UĞURU

Qazma 1 saylı kənd tam orta məktəbinin komandaları xüsusi fərqlənib. Tamara Mirəliyevanın mentorluq etdiyi "Günəşin dadı" komandası yerli məhsulların sağlam qida kimi təqdim olunması ideyası ilə münsiflərin rəğbətini qazanıb. Şagirdlər öz layihələrində günəş altında yetişən meyvə və tərəvəzlərin dadını, təbiiliyi və sağlamlığa faydasını vurğulayıblar.

Lamiyyə Hacıyevanın rəhbərlik etdiyi "Terra Pulse" komandası isə torpaq enerjisini və ekoloji təmiz istehsalı simvolizə edən layihə ilə çıxış edib. Onların ideyası kənd təsərrüfatında yeni texnologiyaların tətbiqi, torpağın "nəbzini" hiss edərək məhsuldarlığı artırmaq üzərində qurulmuşdu.

## ŞAGİRDLƏRİN HİSSLƏRİ

Mükafatlandırma mərasimində şagirdlərin sevinc dolu baxışları diqqətdən yayınmırdı. "Günəşin dadı" komandasının üzvlərindən biri belə dedi: "Biz kəndimizin meyvələrini dünyaya tanıtmaq istədik. Bu uğur bizim üçün həm qürur, həm də məsuliyyətdir."

"Terra Pulse" komandasının gənc iştirakçısı isə layihənin gələcəkdə kənd təsərrüfatına real töhfə verəcəyinə inandığını vurğuladı: "Biz torpağın gücünü hiss etdik və onu elm ilə birləşdirdik. Bu mükafat bizi daha da ruhlandırdı."

## LAYİHƏNİN ƏHƏMİYYƏTİ

"Azerfoodathon" artıq ənənəyə çevrilib. Hər il regionlardan yüzlərlə gənc bu layihədə iştirak edir, kənd təsərrüfatı və qida elmləri sahəsində yeni ideyalar ortaya qoyur. Bu, həm gənclərin biliklərini artırır, həm də kənd təsərrüfatının gələcək inkişafına stimul verir.

Balakən məktəblilərinin uğuru onu göstərdi ki, bölgənin gəncləri innovativ düşüncə və yaradıcılıqla ölkənin gələcəyinə töhfə verməyə hazırdırlar.

**Yeni Balakən**

# Balakənin Sevimlisi – Doktor Məhəmməd Herayev




Herayev Məhəmməd Ramazan oğlu 1954-cü il noyabrın 27-də Balakən rayonu Şambul kəndində dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra 1973-75-ci illərdə ordu sıralarında hərbi xidmət keçib. 1976-1982-ci illərdə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetini bitirib. 1983-cü ildən indiyə qədər Balakən Rayon Mərkəzi Xəstəxanasında cərrah, şöbə müdiri işləyir. İşlədiyi müddətdə Ukraynanın Kiyev, Xarkov şəhərlərində, doğma Bakımızda mədə-bağırsaq traktının cərrahiyəsi, damar cərahiyəsi, döş qəfəsi və qarın boşluğunun təxirə salınmaz cərrahiyyəsi üzrə dəfələrlə kurslarda və elmi praktik konfranslarda iştirak edərək çıxış etmiş, bilik və təcrübəsini həmkarları ilə bölüşmüdür. Rayonda ilk dəfə xolesisfektomiya, qara ciyər və öd yollarında rekonstruktiv əməliyyatları, mədə və on iki barmaq bağırsağın xora xəstəliklərində, mədənin müxtəlif tipli rezeksiyaları, mədə və on iki barmaq bağırsaq xoralarında icra olunan vaqotomiya əməliyyatları, aşağı ətraf venalarının varikoz xəstəliyində flebektomiya, varikoz genəlmələrində çoxsaylı və bir sıra ginekoloji əməliyyatları icra edib. Bu sadaladığımız əməliyyatların hamısı Balakənin səhiyyə tarixində ilk dəfə onun cərrahi əlləri ilə həyata keçirilib, ilk və son icraçısı da məhz cərrah Məhəmməd Herayevdir. Herayevin adı Balakəndə icra olunan mürəkkəb əməliyyatlarla tarixə düşüb: xolesisfektomiya, qaraciyər və öd yollarında rekonstruktiv əməliyyatlar, mədə və on iki barmaq bağırsaq xoralarında vaqotomiya, varikoz xəstəliyində flebektomiya…

Bu gün də respublikanın bir çox xəstəxalarında çalışan cərrahlar doktor Herayevdən öyrənir, bu çətin əməliyyatlarda onun məsləhətini alır, göstərdiyi istiqamətdə öz bölgələrinin insanlarını sağlamlığına qovuşdururlar. Herayev Azərbaycanda nadir cərrahlardandır ik,öz dəsti xətti var, dəqiq diaqnoz, kəsə yoldan effektiv müdaxilə edərək bir çox xəstələri son saniyələrdə ölümdən xilas edib.Məhəmməd Herayevin təcrübəsi, tibbi, elmi bilikləri başlı başına bir kafedra, məktəbdir. 1994-2000-ci illərdə Qabaxçöl xəstəxanasında cərrah işlədiyi zaman Azərbaycanın hər bölgəsindən,hətta qonşu dövlətlər olan Gürcüstan və Rusyadan (Dağıstandan) xəstələr gəlirdi onun yanına əməliyyat olunmaq üçün. Gün ərzində 13-14 əməliyyat icra edib. Bu onun əzmkarlığının bariz nümunəsidir.

Doktor, cərrah Məhəmməd Herayev bu gün də Allahın izni ilə xəstələrə şəfa bəxş etməkdə davam edir. Balakənin hörmətlisi, sevimlisidir. Balakən MRX-da cərrahiyə şöbəsinin müdiri vəzifəsini daşıyır. Cərrah olaraq da ən kritik, çətin əməliyyatlara girir, xəstənin sönmək üzrə olan həyat nəbzini geri qaytarır. Adətən Əzrayılla kəllə-kəlləyə çıxsa da,sonda qalib gəlir.

Məhəmməd Herayev barədə Balakən MRX –nın direktoru, Publik Hüquqi Şəxs Dilbər Quliyeva fikir bildirərkən ilk dediyi o oldu ki, -həkim olmağıma baxmayaraq,əgər Doktor Herayev olmasaydı bu gün mən həyatda yox idim. Biz həkimlər də insanıq, xəstələnirik, bıçaq altına düşürük. Herayevin son anda özünü yetirməsi, əməliyyat qrupunu toplaması, dəqiq diaqnozu və professional cərrahi müdaxiləsi, bütün bunları bir dəqiqə ərzində etməsi məni həyata qaytardı. Məhəmməd Herayev işinin peşəkarı, xəstəxanamızın ağsaqqalı, əsl insan, cərrahiyyənin dahisidir. Mənim sağ əlimdir. O ordadırsa, cərrahiyyə şöbəsindən arxayınam..

Doktor Herayevin davamçılarından oğlu Sərxan Herayev Moskva şəhərinin əyalət xəstəxanasında cərrah işləyir. Qızı Samirə xanım isə Balakən MRX-da ACİL şöbəsinin müdiridir. Herayevin yolunu şərəflə davam etdirirlər. Hər ikisi də həddən ziyadə mədəni,tərbiyəli, savadlı, qabiliyyətli həkimlərdir. Onların savadı, mədəniyyəti və peşəkarlığı atasının qoyduğu yolun davamı kimi dəyərləndirilir. Təbii ki, kimin övladlarıdırlar...?

Məhəmməd Herayev – Balakənin sevimlisi, Azərbaycanın nadir cərrahlarından biri, həyatın son anında ümid işığıdır. Onun adı tibb tariximizdə bir məktəb kimi yaşayacaq. Balakənlilər üçün o, sadəcə həkim deyil – Əzrayılla üz-üzə gəlib qalib gələn qəhrəmandır.

"Bir insanın ömrünü xilas etmək – bütün insanlığı xilas etməkdir."

Doktor Herayevin ömrü bu kəlamın canlı təcəssümüdür.

**Ramazan Abal**

# Balakən məktəblisinin uğuru: Nurdin Abalın parlaq nəticələri




26 aprel və 3 may tarixlərində Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən 9-cu sinif buraxılış imtahanlarının nəticələri açıqlanıb. Balakən şəhəri Nizami adına 1 saylı tam orta məktəb bu dəfə də uğurları ilə seçildi. Bu məktəbdə təhsil sağlam təməldən başlayır, uğurlar isə həmin möhkəm bünövrənin üzərində inşa olunur.

Məktəbin 9b rus bölməsinin şagirdi Nurdin Abal imtahanlarda yüksək nəticə göstərərək üç fənn – ingilis dili, rus dili və riyaziyyat üzrə 266.7 bal, Azərbaycan dili üzrə isə 86.7 bal toplayıb. Bu göstəricilər onun bilik və potensialının yalnız bir hissəsini əks etdirir. Çünki Nurdin suallara cavab verərkən əzbərçilikdən deyil, düşüncədən, şüurun dərinliyindən çıxış edir. Bu xüsusiyyət onun zehni inkişafını, dərrakəsinin genişlənməsini və intellektual gücünü daha da artırır.

## MÜƏLLİMLƏRİN ZƏHMƏTİ – GÖRÜNMƏYƏN QƏHRƏMANLIQ

Nəticələrin arxasında müəllimlərin böyük zəhməti dayanır. Sinif rəhbəri Hacıəhmədova Pərvanə müəllimənin diqqəti və əzmkarlığı, ingilis dili müəlliməsi Əliqayeva Mtvarisanın davamlı nəzarəti, riyaziyyat müəlliməsi Feyziyeva Həqiqət, rus dili müəlliməsi Qalayeva İnarə, Azərbaycan dili müəlliməsi Xəlilova Mesed, kimya müəlliməsi Hacıyeva Leyla, biologiya müəlliməsi Dibirova Gülnarə, coğrafiya müəlliməsi Osmanova Həvva, tarix müəlliməsi Şindiyeva Şəhla, fizika müəlliməsi Qalayeva Aygün, rəqəmsal bacarıqlar müəlliməsi Əlibəyova Sevinc və digər pedaqoqların məsuliyyətli yanaşması bu uğurun əsas dayağıdır. İbtidai sinif müəlliməsi Alqayeva Adilənin əsl pedaqoq kimi verdiyi təməl isə Nurdinin yolunun başlanğıcında mühüm rol oynayıb.

Bir valideynin sözləri ilə desək: "Əziz müəllimlər, yetişdirdiyiniz ağacın meyvələri həqiqətən şirindir. Nurdinin uğurları bizim qədər sizi də sevindirir, fərəhləndirir. Başımızı uca edir, zəhmətiniz hədər getmir."

## GƏNCLİYİN GÜCÜ – GƏLƏCƏYİN TƏMİNATI

Bugünkü təhsil mühitində sistemsizlik, aşırı yüklənmə və keyfiyyətsiz qida məhsullarının yaratdığı diqqət dağınıqlığı uşaqların biliklərini tam şəkildə ortaya qoymasına mane olur. Buna baxmayaraq, Nurdin kimi gənclərin göstərdiyi nəticə bir qəhrəmanlıqdır. Onun uğuru həm ailəsinin, həm müəllimlərinin, həm də Balakənin qürurudur.

Nurdinin uğuru sadəcə rəqəmlərlə ölçülən nəticə deyil, bir məktəbin, bir müəllimlər ordusunun, bir ailənin və bütöv bir şəhərin ümididir. Onun topladığı ballar bir gəncin gələcək yolunun başlanğıcıdır. Bu yolun hər addımında müəllimlərin zəhməti, valideynlərin duası, dostların dəstəyi var.

Balakənin təmiz havası, Nizami məktəbinin möhkəm təməli, müəllimlərin işıqlı baxışları Nurdinin yoluna nur saçır. O, cavablarını əzbərdən deyil, düşüncədən verir – bu, gələcəyin alimlərinin, ziyalılarının, liderlərinin yoludur.

Bir gün Nurdin daha böyük zirvələrə qalxanda, arxaya dönüb deyəcək: "Mənim müəllimlərim var idi – onlar mənə yalnız bilik deyil, həm də həyatın mənasını öyrətdilər."

Bu sözlər Balakənin, Azərbaycanın gələcəyinə yazılmış bir ümid şeiridir. Çünki savadlı balalarımızın uğuru dövlətimizin sabahını daha güvənli, daha parlaq edəcək.

**Yeni Balakən**

# YUSİF RƏCƏBLİ – GƏNC İSTEDADIN PARLAQ QƏLƏBƏSİ



Balakən Uşaq İncəsənət Məktəbinin uğuru – Yusif Rəcəbli Qaxda birincilik qazandı

Şəki-Zaqatala Regional Təhsil İdarəsinin, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqlarının, Yeni Azərbaycan Partiyası rayon təşkilatlarının birgə təşəbbüsü ilə "Heydər Əliyev Məktəblilərin Gözü İlə" adlı inşa yazı müsabiqəsi, həmçinin UGİŞM, UGİM və Uşaq İncəsənət Məktəblərində rəsm müsabiqəsi və idman yarışları təşkil olunmuşdur. Bu tədbirlər ümummilli lider Heydər Əliyevin 103 illiyinə həsr edilmişdir.

Qax rayonunda keçirilən rəsm müsabiqəsində Balakən Uşaq İncəsənət Məktəbinin yetirməsi Yusif Tahir oğlu Rəcəbli birinci yerə layiq görülmüşdür. Onun mənalı və dolğun əsərində Azərbaycanımızın coğrafi, hərbi, siyasi, tarixi və vətənpərvərlik yönləri ustalıqla təsvir olunmuş, gənc rəssamın zəngin mənəvi dünyası, düşüncələri və yaradıcılıq qabiliyyəti aydın şəkildə əksini tapmışdır.

Balakən Uşaq İncəsənət Məktəbi respublikada uğurları ilə tanınan, qabiliyyətli yetirmələri ilə seçilən bir mədəniyyət ocağıdır. Məktəbin növbəti uğurunu tarixə yazan Yusif Rəcəbli hörmətli memarımız Tahir Rəcəblinin oğludur. Valideynlərinin dəyərli tərbiyəsi ilə böyüyən Yusifin zəkası, xəyalları və yaradıcılıq gücü onun yaratdığı tabloda parlaq şəkildə özünü göstərmişdir.

Yusif Rəcəbli kimi gənclərin uğurları bizə göstərir ki, Azərbaycanın gələcəyi istedadlı, vətənpərvər və yaradıcı nəsillərin əlindədir. Onların hər bir əsəri milli ruhumuzun, tarixi yaddaşımızın və gələcəyə inamımızın güzgüsüdür.

Balakən Uşaq İncəsənət Məktəbinin yetişdirdiyi bu gənc istedadın qələbəsi bizi bir daha əmin edir ki, Azərbaycanın sabahı işıqlıdır, çünki bu torpağın övladları həm sənətdə, həm də elm və idmanda zirvələr fəth etməyə qadirdir.

Bu gün Yusifin yaratdığı tablo yalnız bir rəsm deyil, həm də bir mesajdır: "Vətənimizi sevmək, onu qorumaq və gələcəyə daşımaq hər birimizin borcudur."

**Ramazan Abal**

# "Erkən orta əsrlərdə şimal-qərbi Azərbaycanda şəhərsalma və memarlığın inkişafı" mövzusunda elmi-praktiki konfrans keçirilib



Mayın 19-da Balakən Rayon İcra Hakimiyyəti və Azərbaycan Milli Elmlər Akademiyasının Şəki Regional Elmi Mərkəzinin birgə təşkilatçılığı ilə "Erkən orta əsrlərdə şimal-qərbi Azərbaycanda şəhərsalma və memarlığın inkişafı" mövzusunda elmi-praktiki konfrans keçirilib. Balakən ABAD Mərkəzin akt zalında baş tutan konfransda RİHB-nin müavini Turan Dibirov, AMEA -nın Şəki Regional Elmi Mərkəzinin direktor vəzifəsini icra edən filologiya elmləri doktoru, dosent Kamil Adışirinov, müəllimlər, mədəniyyət işçiləri, tarixçilər iştirak edib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himninin səslənib.

Konfransda giriş sözü ilə çıxış edən RİHB-nin müavini Turan Dibirov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2026-cı il ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilib. 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması bu sahədə tarixi ənənələrin yaşadılmasına və mütərəqqi yanaşmaların tətbiqinə çağırışdır. Qeyd olunub ki, Azərbaycanın müasir şəhərsalma tarixində Ulu Öndər Heydər Əliyev milli memarlıq simasının yaradıcısı kimi çıxış edir. Ulu Öndərin rəhbərliyi dövrü memarlığımızın intibah dövrü hesab olunur. Həmin dövr milli ornamentlərin, klassik Şərq elementlərinin və müasirliyin vəhdətini təşkil edən bir mərhələ idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə, Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma işləri müasir urbanizasiya tarixinin ən maraqlı nümunələrindən hesab olunur. Burada şəhərlər və kəndlər ekoloji standartlara uyğun şəkildə qurulur, alternativ enerji layihələri həyata keçirilir, ağıllı idarəetmə sistemləri tətbiq olunur.

Daha sonra AMEA -nın Şəki Regional Elmi Mərkəzinin direktor vəzifəsini icra edən filologiya elmləri doktoru, dosent Kamil Adışirinov çıxış edərək konfrans əhəmiyyətindən bəhs edib. Bildirib ki, Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin bir keçmişi vardır. Bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan müdafiə qalaları, karvansaralar, məscid, məbəd və türbələr milli memarlığın parlaq ənənələrini əks etdirir.

Konfransda Şəki Regional Elmi Mərkəzin Tarix və epiqrafika şöbəsinin baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Akif Məmmədlinin "Balakən-Zaqatala bölgəsin-də antik və erkən orta əsrlərdə şəhərsalma və memarlıq ənənələri", Şəki Regional Elmi Mərkəzin Arxeologiya və etnoqrafiya şöbəsinin rəhbəri Elşən Abdurahmanovun "Qafqaz Albaniyasının Şəki vilayətinin erkən orta əsr memarlıq abidələri", Zaqatala Tarix Mədəniyyət Qoruğunun direktoru Anar Laçınovun "Zaqatala memarlığının dünəni və bugünü" və Qax Tarix Diyarşünaslıq Muzeyinin direktoru Mahir Əfəndinin "Qax rayonunda şəhərsalma və memarlıq həlli baxımından tarixi-mədəni irsin izləri" mövzusunda məruzələri dinlənilib.

**Yeni Balakən**



# Balakəndə "Azərbaycan memarlığında Heydər Əliyev imzası" adlı konfrans keçirilib

Mayın 8-də Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103 illiyinə həsr olunmuş "Azərbaycan memarlığında Heydər Əliyev imzası" mövzusunda konfrans keçirilib. Rayon Heydər Əliyev Mərkəzində baş tutan konfransda Balakən Rayon İcra Hakimiyyəti başçısının müavini Turan Dibirov, Yeni Azərbaycan Partiyasının Balakən təşkilatının sədr müavini Qurban Qaraisayev və fəalları, rayon təhsil sektorunun müdiri Mehparə Mirzəyeva,şəhid ailələrinin üzvləri, idarə, müəssisə və təşkilatların əməkdaşları, məktəb direktorları, rayon ictimaiyyətinin nümayəndələri iştirak edib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himninin səslənib. "Azərbaycan memarlığında Heydər Əliyev imzası" adlı filmin nümayiş etdirilib.

Konfransı giriş sözü ilə açan Balakən Rayon İcra Hakimiyyəti başçısının müavini Turan Dibirov bildirib ki, müasir Azərbaycanın memarı Ümummilli Lider Heydər Əliyev bu gün bütün dünyaya səs salmış müasir və müstəqil Azərbaycanın qurulması, inkişafı və tərəqqisində əvəzsiz rol oynamış, ictimai-siyasi, sosial-iqtisadi fəlakət astanasında olan Azərbaycanı uçurumdan, yox olmaqdan, daxili çəkişmələrdən xilas edib. Ulu Öndərin iradəsi, cəsarəti və qətiyyəti, uzaqgörən və müdrik siyasəti nəticəsində xalqımızın Qarabağ həsrətinə son qoyulduğunu vurğuluyan Turan Dibirov Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın dünyanın ən qüdrətli, surətlə inkişaf edən, aparıcı dövlətə çevrildiyini, hər birimizin bugünkü Azərbaycanımıza görə Ulu Öndərimizə, ölkəmizin parlaq gələcəyinə görə isə cənab Prezidentimiz İlham Əliyevə minnətdar olduğumuzu diqqətə çatdırıb. Qeyd olunub ki, Ulu Öndər hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycanın memarlıq üslubunun qorunmasına böyük həssaslıqla yanaşıb. Azərbaycanın müasir şəhərsalma tarixində Heydər Əliyev dövrü xüsusi mərhələdir. Onun rəhbərliyi illərində həyata keçirilən quruculuq işləri həm Bakının, həm də regionların simasını əsaslı şəkildə dəyişdirmişdir.

Mövzu ətrafında digər çıxış edənlər Balakən rayonu üzrə gənclər və idman sektorunun müdiri vəzifəsini müvəqqəti icra edən Sarxan Hacıyev, RİH-in Memarlıq-tikinti məsələləri sektorunun aparıcı məsləhətçisi Oruc Orucov, Heydər Əliyev Mərkəzinin əməkdaşı Jalə Hüseynova, Azərbaycan Yazıçılar Birliyinin Şimal-qərb regional bölməsinin sədri Əlmaniz Ələkbərli Ulu Öndər Heydər Əliyevin zəngin və şərəfli həyat yolu, çoxşaxəli siyasi fəaliyyəti və xilaskarlıq missiyasından bəhs ediblər. Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1969-cu ildən başlayaraq şəhərsalma sahəsində sistemli islahatlar həyata keçirilib. Həmin dövrdə Bakının Baş planı yenidən işlənilib, geniş prospekt və yolların çəkilməsi bilavasitə onun adı ilə bağlı olub. Vurğulanıb ki, Ulu Öndər Heydər Əliyev tərəfindən sovet ideologiyasının məhdudiyyətlərinə baxmayaraq, milli ornamentlərin memarlıq nümunələrinə daxil edilməsi cəsarətli və uzaqgörən addım idi.

Sonra konfrans iştirakçıları rayon Heydər Əliyev Mərkəzinin ekspozisiyası ilə, Ulu Öndərə həsr edilən foto və kitablardan ibarət sərgilərlə tanış olublar.

**Yeni Balakən**

# "Vətənpərvər Azərbaycan gəncliyi – sağlam gənclik, sağlam gələcək" mövzusunda görüş

Mayın 14-də rayon Mədəniyyət Mərkəzində Balakən Rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) və rayon üzrə təhsil sektorunun birgə təşkilatçılığı ilə "Vətənpərvər Azərbaycan gəncliyi – sağlam gənclik, sağlam gələcək" mövzusunda görüş keçirilib. Görüşdə rayon icra hakimiyyətinin başçısı Natiq Ağayev, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Aparatının idarə rəisi Füzuli İsmayılov, şöbə rəisi Pərviz Sədrəddinov, xidmətin rayon şöbəsinin rəisi Ramil İsmayılov, Vətən Müharibəsi Qəhrəmanları Ramazan Hudulov və Fərid Əliyev, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər, yuxarı sinif şagirdləri iştirak edib.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səslənib. Azərbaycan Respublikasının prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin gənclərlə bağlı çıxışı ilə əlaqədar video nümayiş olunub.

Görüşdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Natiq Ağayev belə tədbirlərin gənclərdə vətənpərvərlik hissinin artmasına müsbət təsir göstərdiyini bildirib. Qeyd olunub ki, Azərbaycan gəncləri yüksək vətənpərvərlik ruhu, fiziki hazırlığı və intellektual potensialı ilə dövlətçiliyimizin əsas dayağıdır. Onlar təhsildə, gündəlik davranışda nümunəvi vətəndaş olmalı, milli kimliyimizi yaşatmalı, dövlətimizin gələcəyinə töhfə verməlidirlər.

SHXÇDX-nin Çağırışaqədərki hazırlıq idarəsinin rəisi polkovnik-leytenant Füzuli İsmayılov müharibə zamanı gənclərin vətənpərvərliyindən, sabahın əsgəri olacaq çağırışçıların fiziki və psixoloji statuslarının yüksək səviyyədə saxlanılmasından, həmçinin yeniyetmə və gənclər arasında sağlam həyat tərzinin təbliği, onların həyat üçün zərərli vərdişlərdən uzaqlaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.

Dövlət Xidmətinin İctimaiyyətlə iş və beynəlxalq əlaqələr şöbəsinin rəisi Pərviz Sədrəddinov ali məktəbə qəbul olmağa hazırlaşan gənclərə tövsiyə və məsləhətlərini verib. Həmçinin xaricdə təhsil, təhsilə görə verilən möhlət barədə də geniş məlumat çatdırıb.

SHXÇDX-nin Balakən rayon şöbəsinin rəisi polkovnik Ramil İsmayılov hərbi qeydiyyat, tibbi şəhadətləndirmə, çağırışçıların hüquq və vəzifələri barədə geniş məlumat verib.

Görüşdə çıxış edən şəhid anası Gülşən Kərimova, Vətən Müharibəsi Qəhrəmanı mayor Fərid Əliyev öz təəssüratlarını bölüşüblər.

Sonda rayon mədəniyyət işçilərinin və məktəblilərin ifasında ədəbi-bədii kompozisiya nümayiş olunub.

**Yeni Balakən**

# Böyük Vətən müharibəsi veteranı ziyarət edilib



İkinci Dünya müharibəsi illərində Azərbaycan xalqı 600 mindən çox oğul və qızını cəbhəyə yola salıb, onların təxminən yarısı döyüşlərdə həlak olub. Faşizm üzərində tarixi Qələbənin əldə edilməsində Balakənin qəhrəman oğul və qızları da böyük rəşadət göstərib, Qafqazdan Berlinədək şanlı döyüş yolu keçiblər. Ön cəbhələrə yola salınan 6 minə yaxın balakənli döyüşçünün yarıdan çoxu müharibədən geri qayıtmayıb.

Respublikamızın hər yerində olduğu kimi, Balakən rayonunda da müharibə veteranları daim diqqət və qayğı ilə əhatə olunublar. İllər keçdikcə onların sıraları azalır. Onu da qeyd edək ki,bu il respublikada onlar sayca 13 nəfərdir.12-si şəhərdə,bir nəfər isə rayonda yaşayır. Hazırda Balakən rayonunda bir nəfər İkinci Dünya müharibəsi iştirakçısı-101 yaşlı Perekrestov İosif Pavloviç yaşayır.

İkinci Dünya müharibəsində faşizm üzərində tarixi Qələbənin 81-ci ildönümü münasibətilə Balakən Rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin və "Yeni Balakən" qəzetinin rəhbərliyi mayın 8-də İosif Perekrestovu evində ziyarət ediblər. Veteran müharibə illərində şahidi olduqları məhrumiyyət və çətinliklərdən, keçdiyi döyüş yolundan xatirələr danışıb.

Müharibə veteranlarının ailə üzvlərinin də iştirak etdiyi görüşdə bildirilib ki, ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra hər il 9 May Azərbaycanda dövlət səviyyəsində qeyd edilir. Hazırda müharibə veteranlarına dövlətimiz tərəfindən yüksək diqqət və qayğı göstərilir. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 2750 manat məbləğində birdəfəlik maddi yardımın verilməsi bu qayğının bariz nümunəsidir.

Veteran döyüşçü və ailə üzvləri müharibə veteranlarına göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

**Yeni Balakən**

# Balakənin Tarixi Açıq Səma Altında Canlanacaq



Balakənin tanınmış tarixçi alimi, hörmətli Akif Məmmədli uzun illərdir evində yaratdığı tarix muzeyində bölgəmizin zəngin keçmişini sevə-sevə qonaqlara təqdim edir. Dünyanın müxtəlif yerlərindən gələn ziyarətçilər onun ev muzeyindəki eksponatlarla tanış olur, Balakənin tarixi barədə dolğun və maraqlı məlumatlar əldə edirlər.

Bu dəfə muzeyin qonaqları Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev,müavini Turan Dibirov, köməkçisi Vüqar Əliyev və polis rəisi Çingiz Aslanov oldu. Akif müəllim onları qapıda qarşılayaraq evinə dəvət etdi, hər bir eksponatın tarixini, tapıntıların mənasını böyük həvəslə izah etdi. Onun təqdimatı o qədər axıcı və maraqlı idi ki, iki saat yarımın necə keçdiyini hiss etmək mümkün olmadı.

Zəngin eksponatlarla tanışlıqdan sonra rayon rəhbəri Natiq Ağayev daha öncədən nəzərdə tutduğu bir ideyanı – Zərifə Əliyeva adına parkda açıq səma altında tarix muzeyinin yaradılmasını – tam şəkildə formalaşdırdı. Bu işin başına gətiriləcək şəxs isə təbii ki, Akif Məmmədli idi. Tarixçi alim bu təklifi böyük sevinc və həvəslə qəbul etdi. O, Balakənin tarixini daha geniş imkanlarla, rəsmi dəstəklə təbliğ etmək fürsətini böyük minnətdarlıqla qarşıladı.

Biz də rayon rəhbərinə – Natiq müəllimə – Balakənin tarixinə göstərdiyi diqqət və sevgiyə görə təşəkkür edirik. Akif müəllimə isə uğurlar arzulayırıq. Onun məmləkət və tarix sevgisi Balakənin mədəni həyatında yeni zirvələrə yol açacaq.

**Yeni Balakən**

# Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev Vətən müharibəsi şəhidi Cavid Yüzbaşiyevin ailəsini ziyarət edib



Görüşdə rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, RİHB Aparatının məsul şəxsləri, Hənifə kənd inzibati ərazi dairəsi üzrə nümayəndə və bələdiyyə sədri iştirak edib.Səmimi şəkildə keçən görüşdə şəhidimizin keçdiyi şərəfli döyüş yolundan, göstərdiyi şücaət və qəhrəmanlıqlardan danışılıb. Qeyd edək ki, Yüzbaşıyevlər ailəsi Vətən üçün canından keçən qəhrəmanlar övladlar yetirmişdir. Şəhidimizin atası Yüzbaşiyev Cavanşir Camaldin oğlu torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda aparılmış müharibədə 1992-ci ildə yaralanaraq əlil olmuş və 2019-cu ildə vəfat etmişdir. Şəhidimizin əmisi Yüzbaşiyev Cahangir Camaldin oğlu isə 1992-ci ildə şəhid olmuşdur. Yüzbaşiyevlər ailəsi Vətənimizə xidmətləri və qəhrəmanlıqları ilə qürur duyduqlarını bildirdilər. Şəhidlərimiz hörmət və ehtiramla xatırlandı. Vurğulandı ki, şəhid ailələrinə göstərilən diqqət və qayğı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Rayon rəhbəri Natiq Ağayev şəhid ailəsinin gündəlik qayğıları ilə maraqlanaraq cəmi şəhidlərimizə Allahdan rəhmət ailələrinə səbr dilədi. Şəhid anası Aynur Yüzbaşiyeva şəhid ailəsinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildirdi.

Yeni Balakən

# Şəhid ailəsinə diqqət və qayğı

Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev Antiterror əməliyyatı zamanı şəhid olmuş Köklərov Sərxan Eyvaz oğlunun ailəsini ziyarət edib. Görüş zamanı icra başçısı şəhidin qızı Məryəm Köklərovanı doğum günü münasibətilə hədiyyələrlə təbrik edərək, ona uzun ömür, sağlamlıq və dərslərində uğurlar arzulayıb.

Şəhidimizin Aysu, Məryəm və Yusif adlı övladları Vətənə əmanət qalıb. Onların gələcəyi dövlətin diqqət və qayğısı ilə təmin olunur.

Görüşün səmimi ab-havası şəkillərdə də öz əksini tapırdı. Şəhidin xatirəsinə həsr olunmuş guşədə onun döyüş yolunu əks etdirən hərbi geyimlər, çantalar və fotoşəkillər nümayiş olunurdu. Divarda "Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalmış Balakənin qəhrəman övladları" başlığı altında igidlərin portretləri yer almışdı. Bu guşə həm ailə üzvləri, həm də qonaqlar üçün qürur və kədərin birləşdiyi müqəddəs bir məkana çevrilmişdi.

Digər anlarda isə ailə üzvləri və icra başçısı birlikdə şəhidin ailə fotoları önündə dayanaraq, onun həyat yolunu xatırladılar. Azərbaycan bayrağı və hərbi forma ilə bəzədilmiş guşə Sərxan Köklərovun Vətən uğrunda göstərdiyi şücaətin rəmzi idi.



Görüşün ən duyğulu məqamı isə Məryəm Köklərovanın doğum günü münasibətilə kəsilən tort oldu. Ailə üzvləri və qonaqlar bir araya gələrək bu anı bölüşdülər. Şəhidin övladlarının üzündəki təbəssüm, onların gələcəyinə olan ümidin və dövlətin qayğısının bariz göstəricisi idi.

Şəhidimizin anası Xalisət Köklərova, həyat yoldaşı Günel Köklərova, qardaşları Absələddin və Ceyhun Köklərov Sərxan Köklərovun göstərdiyi şücaət və qəhrəmanlıqlardan, onun həyat və şərəfli döyüş yolundan söz açaraq, bu günün həm kədərli, həm də qürurlu olduğunu vurğuladılar.

İcra başçısı ailənin gündəlik qayğıları ilə maraqlanaraq, onların problemlərinin həlli istiqamətində dəstəyini ifadə etdi.

Allah bütün şəhidlərimizin ruhunu şad etsin, ailələrinə səbr versin.

Yeni Balakən

# Balakəndə Şəhid Ailəsinə Ziyarət



08 may 2026-cı il tarixində Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev Vətən müharibəsi şəhidi Mollaçiyev Əhməd Rəcəb oğlunun ailəsini ziyarət edib. Ziyarətdə rayon polis şöbəsinin rəisi, icra hakimiyyəti aparatının məsul şəxsləri, Püştətala kənd icra nümayəndəsi və bələdiyyə sədri də iştirak ediblər.

Görüş zamanı şəhidimizin keçdiyi həyat və şərəfli döyüş yolu xatırlanıb, göstərdiyi igidlik və qəhrəmanlıqlardan danışılıb. Şəhidimiz hörmət və ehtiramla yad edilib. Qeyd olunub ki, şəhid ailələrinə göstərilən diqqət və qayğı dövlət siyasətinin əsas istiqamətlərindən biridir və bu istiqamətdə işlər ardıcıl şəkildə davam etdirilir.

Rayon rəhbəri Natiq Ağayev şəhid ailəsinin gündəlik qayğıları ilə maraqlanaraq şəhidimizə Allahdan rəhmət, ailəsinə səbr diləyib.

Şəhid atası Mollaçiyev Rəcəb Məhəmməd oğlu və anası Mollaçiyeva Şahru Əhməd qızı göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını ifadə ediblər.

Yeni Balakən

# "Qarabağnamə" – Ulu Öndərə həsr olunan səhnə duyğusu

Balakən rayonunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə keçirilən silsilə tədbirlər yaddaşlarda dərin iz buraxır. Bu tədbirlərin ən təsirli məqamlarından biri isə rayon Mədəniyyət Mərkəzində nümayiş olunan "Qarabağnamə" tamaşası oldu.

İlyas Əfəndiyevin "Hökmdar və qızı" əsasında hazırlanan tamaşa Mədəniyyət Mərkəzinin bədii rəhbəri Zöhrə Bakeyeva tərəfindən səhnələşdirildi. Tamaşadan əvvəl foyedə Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş kitab sərgisi ziyarət olundu, bu isə tədbirə xüsusi mənəvi rəng qatdı.

Şəki–Zaqatala Regional Mədəniyyət İdarəsinin Balakən üzrə nümayəndəsi Şəfəq Hacıyeva çıxışında Ulu Öndərin Azərbaycan mədəniyyətinə göstərdiyi qayğıdan danışaraq vurğuladı ki, "Qarabağnamə" tamaşasının məhz bu günə həsr olunması təsadüfi deyil, milli-mənəvi dəyərlərimizin yaşadılmasına bir töhfədir.



Səhnədə Arzu Ocaxverdiyev, Qürbət Muradov, Nərgiz Hacıyeva, Nazim Manafov və dram dərnəyinin üzvləri – Kəmalə Qurbanova, Vüqar Mikayılov, Rasim Sərkərov, Rəfail Nəbiyev, Namiq Novruzov, Ramazan Mollaçıyev, Ramazan Abalov, Zamin Yüzbaşiyev, Nani Cavadova və Səadət Cerçiyeva obrazları böyük ustalıqla canlandırdılar. Tamaşaçılar onların ifasını alqışlarla qarşıladı, səhnədəki hər bir söz, hər bir duyğu salonda dərin rəğbət doğurdu.

Tamaşanın sonunda Heydər Əliyevin "Qarabağnamə" haqqında fikirlərinin yer aldığı videoçarx nümayiş olundu. Bu məqam tamaşanın emosional təsirini daha da gücləndirdi, izləyicilərə həm tarixi, həm də mənəvi bir mesaj verdi.

Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev tədbir iştirakçıları ilə görüşərək onlara fəaliyyətlərində uğurlar arzuladı. Sonda yaradıcı heyətlə xatirə şəkli çəkildi.

Yeni Balakən



# Balakəndə Qurban Bayramının İlk Günündə Yeni Kəsim Məntəqəsi Açıldı

Balakən rayonuna başçı təyin olunan Natiq Ağayev ilk gündən etibarən rayonun ehtiyaclarını öyrənməyə, problemləri ilə maraqlanmağa və onların həlli istiqamətində qətiyyətli addımlar atmağa başladı. Onun ideyası və təşəbbüsü ilə ərsəyə gələn kəsim məntəqəsi bu gün – Qurban bayramının ilk günü istifadəyə verildi. Bu, Balakənlilərə bayram hədiyyəsi oldu.

Məntəqənin ilk kəsimi də qurbanlıq heyvanlarla başladı. Rayon İcra Hakimiyyətinin əzmkarlığı nəticəsində yaradılan bu məntəqədə ilk qurbanlıq heyvanın təkbiri oxundu, bütün niyyətlərin və saleh əməllərin Allah tərəfindən qəbul olunması üçün dualar edildi.

Tədbirdə Balakən RİH nümayəndələri, millət vəkilinin nümayəndəsi, məhkəmə təmsilçiləri, din xadimləri, şəhid ailələri, qazilər, ağsaqqallar və QHT-lər iştirak edərək məntəqənin açılışına xeyir-dua verdilər. Vətəndaşlar gətirdikləri iri və xırda buynuzlu heyvanları burada kəsdirmək imkanı qazandılar. Balakən DAİM-in baytarları heyvanları yoxlayaraq qida təhlükəsizliyini təmin etdi,AQTA, AXA nümayəndələri və Balakən GEM rəhbərliyi isə prosesi nəzarətdə saxladı.

Yeni kəsim məntəqəsi Balakən– Gürcüstan yolunun üzərində, Qullar kəndində köhnə kərpic zavodu adlanan ərazidə yerləşir. Burada həm mal bazarı, həm də kəsim məntəqəsi fəaliyyət göstərəcək. Gələcəkdə bazardan mal alan istər fərdi vətəndaş, istərsə də ət satışı ilə məşğul olan ticarətçilər natəmiz işlərdən azad olacaq, həkim və baytar nəzarətində peşəkar qəssabların gigiyenik xidmətindən yerindəcə faydalanacaqlar.

Bu addım Balakənin sosial və dini həyatında mühüm yenilikdir. Qurban bayramının ilk günündə istifadəyə verilən kəsim məntəqəsi həm dini dəyərlərə hörmətin, həm də vətəndaşların rifahına göstərilən diqqətin bariz nümunəsidir.

Bayramın sevinci, təmizlik və birliklə tamamlandı. Allah bütün niyyətləri qəbul etsin, Balakənə daha çox xeyirli işlər nəsib etsin.

Yeni Balakən

# Qurban Bayramı – İman və Birliyin Zirvəsi

İnsanın həyatını nizamlayan, ona düzən verən ilk növbədə inancıdır. İnsan inandığı kimi yaşar, bildiyi kimi edər. Bizim inancımız isə Allahdan, Onun bizə Qurani-Kərimdə bildirdiklərindəndir. Din – bir həyat tərzi, bir yaşam biçimidir. Yaradanın bizə buyurduğu din – İslamdır. İslam dini başdan ayağa gözəlliklərlə doludur.

Bu gözəlliklərdən biri də minilliklərdir yaşadılan Qurban bayramıdır. Həzrəti İbrahimin övladı İsmayılla imtahana çəkildiyi o sınağın müsbət cavabı Allah tərəfindən bayramla mükafatlandırıldı. Yeddi min ilə yaxın tarixi olan Qurban bayramı bu gün də dünyanın hər yerində müsəlmanlar tərəfindən sevgi, sayğı və paylaşma ilə qeyd olunur. Maddi nemətlər paylaşdıqca azalır, mənəvi dəyərlər isə paylaşdıqca çoxalır. Sevinclər də bu qəbildəndir.

Bu gün səhər saatlarında Balakən Cümə Məscidində bayram namazı qılındı. Balakənin müxtəlif yerlərindən gələn möminlər bir araya gələrək bayram xütbəsini dinlədilər. İbadətdən sonra din qardaşları bir-birini təbrik etdi, ən xoş arzularını dilə gətirdi. Hər kəs Allahdan neçə-neçə belə bayramları qarşılamağı, birlik və bərəkət içində yaşamağı dilədi.

Qurban bayramı – yalnız qurbanlıq heyvanların kəsilməsi deyil, həm də mənəvi dəyərlərin, yardımlaşmanın, qardaşlığın bayramıdır. Bu gün Balakən Cümə Məscidində yaşanan mənzərə bir daha göstərdi ki, İslamın ruhu – sevgi, paylaşma və həmrəylikdir.

Bayramınız mübarək olsun! Allah hər bir evə bolluq, hər bir ürəyə sevinc bəxş etsin.

Yeni Balakən

# 2026-cı ilin yanvar-mart aylarında Balakən rayonunun iqtisadi və sosial inkişafının göstəriciləri

**Ümumi məhsul buraxılışının həcmi** 2025-ci ilin yanvar-mart ayları ilə müqayisədə 2026-cı ilin yanvar-mart aylarında *ilkin hesablamalara görə* real ifadədə 6,6 faiz artaraq 71770,2 min manat təşkil etmişdir. ***Məhsul buraxılışının 32,5 faizi sənaye, 1,9 faizi tikinti, 21,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 1,3 faizi informasiya və rabitə, 39,5 faizi isə ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində istehsal edilmişdir.***

**Sənaye** müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2026-cı ilin yanvar-mart aylarında 23346,1 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 9,3 faiz çox sənaye məhsulu istehsal edilmişdir.

Sənaye məhsulunun 83,5 faizi emal sektorunda, *15,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda və 1,0 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.*

*İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 aprel 2026-cı il vəziyyətinə 105,2 min manatlıq hazır məhsul olmuşdur.*

**Kənd təsərrüfatında** 2026-cı ilin yanvar-mart aylarında 15323,0 min manat məbləğində və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 3,3 faiz çox kənd təsərrüfatı məhsulu istehsal edilmişdir.

Hesabat dövründə diri çəkidə 1140,2 ton ət, 5829,3 ton süd və 2863,0 min ədəd yumurta istehsal olunmuşdur. 2025-ci ilin yanvar-mart ayları ilə müqayisədə ət istehsalı 3,5 faiz, süd istehsalı 3,2 faiz və yumurta istehsalı 2,0 faiz artmışdır.

2026-cı ilin yanvar-mart aylarında **əsas kapitala** 3266,3 min manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 15,2 faiz az investisiya yönəldilmişdir.

**Nəqliyyat və anbar təsərrüfatı** sektorunda 2026-cı ilin yanvar-mart aylarında 2513,4 min manat məbləğində və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 58,1 faiz çox xidmət göstərilmişdir. Nəqliyyat sektorunda 216,0 min ton və ya ötən ilin eyni dövrü ilə müqayisədə 5,4 faiz çox yük, 1930,0 min və ya ötən ilin eyni dövrü ilə müqayisədə 6,6 faiz çox sərnişin daşınmışdır.

**İnformasiya və rabitə** müəssisələri tərəfindən 2026-cı ilin yanvar-mart aylarında 904,5 min manat məbləğində və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 13,4 faiz az xidmət göstərilmişdir.

2026-cı ilin yanvar-mart aylarında istehlakçıların **pərakəndə ticarət** şəbəkəsində xərclədiyi ümumi vəsait 86976,2 min manat təşkil etmiş və bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 0,2 faiz artmışdır. Ticarət şəbəkəsində 58891,4 min manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 28084,8 min manatlıq qeyri-ərzaq malları satılmışdır.

2026-cı ilin yanvar-mart aylarında xidmət subyektləri tərəfindən əhaliyə 20991,7 min manatlıq **ödənişli xidmət göstərilmiş və 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə** əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir 8,9 faiz artmışdır.

2026-cı ilin yanvar-mart aylarında muzdlu işçilərin **orta aylıq nominal əməkhaqqı** 2025-ci ilin müvafiq dövrünə nisbətən 5,3 faiz artaraq 637,3 manat təşkil etmişdir.

2026-cı il aprel ayının 1-i vəziyyətinə rayon **əhalisinin sayı** *ilkin hesablamalara görə* 101287 nəfər təşkil etmişdir.

*Əsəbəli Alqayev*
*Balakən Rayon Statistika İdarəsinin rəisi*

## İTMİŞDİR

Xalayev Yusif Musa oğluna Qafqaz Müsəlmanları İdarəsi tərəfindən verilmiş HAFİZLİK DİPLOMU itdiyi üçün etibarsız sayılır.

MƏSUL REDAKTOR: Ramazan ABALOV

Ünvanımız: Balakən şəhər. H.Əliyev pr.40
www.yeni balaken.az
ramazanabal@gmail.com
Mob: 050 518 17 60

HESAB NÖMRƏMİZ:
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO1350100000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 100